Premyera

# Cavidlər ailəsinin faciəsi səhnədə

**Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının Hüseyn Cavidin 140 illik yubileyi münasibəti ilə səhnələşdirdiyi "Atam, anam, qardaşım, mən və Stalin" tamaşası dünən Aktyor evində sənətsevərlərə təqdim edildi.**



Tənqidçi-publisist, cavidşünas Azər Turanın müəllifi olduğu səhnə əsərində Azərbaycan ədəbiyyatında romantizm cərəyanının əsas nümayəndəsi olan Hüseyn Cavidin ailə üzvləri – Müşkinaz, Ərtoğrul və Turan Cavidlərin Stalin repressiyası səbəbindən məruz qaldıqları məşəqqətli ömür yollarından bəhs olunur.

"Atam, anam, qardaşım, mən və Stalin" pyesi tarixi sənədlərin, faktların, təkcə Hüseyn Cavidin deyil, ümumiyyətlə, 1937-ci ildə Cavid ilə bağlı tərtib olunmuş istintaq materiallarının, Müşkinaz Cavidin "Cavid haqqında xatirimdə qalanlar" memuarının, Ərtoğrul Cavidin yazdığı esselərin, məktubların, Turan Cavid ilə Azər Turanın müxtəlif vaxtlarda etdiyi söhbətlərin əsasında ərsəyə gəlib. Pyesin mətnini təşkil edən bu sənədləri müxtəlif illərdə Azər Turan nəşrə hazırlamışdır. "Ərtoğrul Cavidin bütün əsərləri", Müşkinaz Cavidin "Cavid haqqında xatirimdə qalanlar", "Turan Cavidin son söhbəti, son yaşantıları, son günü" kitabları bu silsiləyə daxildir.



Azər Turanın yaradıcılığında məhz Hüseyn Cavidin keçdiyi keşməkeşli həyat yolu, onun poeziyası önəmli yerlərdən birini tutur. Onun Cavid haqqında yazdığı kitablar təkcə Azərbaycanda deyil, qardaş Türkiyədə də nəşr olunmuşdur. Azər Turan hələ gənclik illərindən Hüseyn Cavid yaradıcılığının vurğunu olmuş, onun haqqında yazmaq üçün qızı Turan Cavid ilə sıx əlaqələr qurmuşdur. Son günlərinədək özünə mənəvi ana bildiyi Turan xanımın yanında olan tənqidçi-yazar bu pyesi də yazarkən ondan bir çox məsləhətlər almışdır.

Qeyd edək ki, tamaşa Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanovun quruluşunda hazırlanıb. Rolları Əməkdar artist Esmiralda Şahbazova, aktyorlar– Natiq Həziyev, Samir Əliyev, Pərvin Dadaşova, Niyaməddin Səfərəliyev ifa ediblər.

Tamaşanın quruluşçu rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatçısı Çingiz Xəlilov, rejissor assistenti İmaməli İmaməliyevdir.

İlk tamaşanın dəvətliləri olan tanınmış ziyalılar və sənətsevərlər Cavidlər ailəsinin faciəsindən bəhs edən kəskin süjetli pyesin səhnə təqdimatını böyük maraqla izlədilər.

**Fidan HÜQUQQIZI,**
**"Xalq qəzeti"**